# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

aem.az

AEM

e-ISSN: 2789-6919


## I RESPUBLİKA ELMİ KONFRANSI

## I REPUBLICAN SCIENTIFIC CONFERENCE

**15.10.2023**

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 0.864**

---

## I RESPUBLİKA ELMİ KONFRANSI

DOI: https://doi.org/10.36719/2789-6919/2023/1

# SCIENTIFIC RESEARCH

**International online scientific journal**
**Impact Factor: 0.864**

---

## I REPUBLICAN SCIENTIFIC CONFERENCE

**(15.10.2023)**

**Bakı – Baku**
**2023**

Jurnal 01.03.2021-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr № 4336

The journal is included in the register of Press editions of the Ministry of Justice of the Republic of Azerbaijan on 01.03.2021. Registration № 4336

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh., Mətbuat prospekti, 529, "Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku, Mətbuat Avenue, 529, "Azerbaijan" Publish House, 6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**e-mail:**
tedqiqat.rek@aem.az

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6919**
**DOI: 10. 36719**

# TƏŞKİLAT KOMİTƏSİ

## Sədr

**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan

## Sədr müavinləri

**Mübariz HÜSEYİNOV,** "Elmi Tədqiqat" beynəlxalq onlayn elmi jurnalının baş redaktoru / Azərbaycan

# ÜZVLƏR

**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof.Dr. İlham ŞAHMURADOV**, AMEA Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. İbadulla AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti/ Azərbaycan
**Assoc. Prof. Dr. Afərin ABBASOVA**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəfəq ABDULLAYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zaman MƏMMƏDOV**, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr.Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti/ Azərbaycan
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tedqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr.Aytəkin AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr.Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan

# THE ORGANİZİNG COMMİTTEE

## Chairman

**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan

## Deputy chairmen

**Mubariz HUSEYINOV:** Editor-in chief of the international scientific journal "Scientific research" / Azerbaijan

# MEMBERS

**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof.Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Ibadulla AGAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV,** Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Aferin ABBASOVA,** Western Caspian University / Azerbaijan
**Assoc. Prof. Dr. Shefeg ABDULLAYEVA**, Azerbaijan Universty of Language / Azerbaijan
**Assoc. Prof. Dr. Zaman MƏMMƏDOV**, Institute of Soil Science and Agro Chemstry of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr.Garanfil GULİYEVA,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Cattle-breeding Scientific research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**I Respublika Elmi Konfransı / 15 oktyabr 2023 / 5-7**
**I Republican Scientific Conference / 15 october 2023 / 5-7**
**DOI: https://doi.org/10.36719/2789-6919/2023/1**

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Aysel Şükürova**
Azərbaycan Respublikası DİN-in Polis Akademiyası
Filologiya üzrə fəlsəfə doktoru
aysel_edu@yahoo.com

## MƏTNİN KOQNİTİV TƏHLİLİ

***Açar sözlər:*** *koqnitiv dilçilik, nitq, mətn, kommunikasiya, dil və şüur*
***Keywords:*** *cognitive linguistics, speech, text, communication, language and consciousness*

Dil və şüur arasında əlaqənin qurulması məsələsi dilçiliyin özü qədər qədim tarixə malikdir. İki min ildən artıq bir müddət ərzində bu problem üzərində düşünülmüş, çoxlu sayda məktəb formalaşmışdır. Bu məktəblər dil və şüurun sərhədlərini, əsas xüsusiyyətlərini, qarşılıqlı əlaqələrinin xarakterini işıqlandırmaqda fərqlənirlər.

Koqnitiv dilçilik də bu problemlərin həllinə yönəlmişdir. Onun nümayəndələri ya bəzi dilçilik istiqamətlərinə qarşı çıxır, ya da çağdaş dövrün humanitar elmlərinin nailiyyətlərini öz sahələrinə cəlb etməklə artıq ifadə olunmuş fikirləri yeni səviyyədə inkişaf etdirirlər.

Koqnitiv psixologiyanın kəşfləri koqnitiv dilçilik üçün son dərəcə əhəmiyyətlidir. Buna görə də cəmiyyətdə şüurun təbiəti, fəaliyyəti haqqında anlayışlar, eyni zamanda idrak-dil-nitq əlaqələri barəsində tez-tez yeni fikirlər təzahür edir. Koqnitiv dilçiliyin formalaşmasına və linqvistik funksionalizmin müstəqil istiqamətinə töhfə verən ən mühüm xarici təkan məhz

DOI: https://doi.org/10.36719/2789-6919/2023/1

yuxarıda qeyd etdiyimiz problemlərin həllinə yaranmış ehtiyacdır.

Qeyd etmək lazımdır ki, dil ilə idrak proseslərinin, mexanizmlərinin qarşılıqlı əlaqəsi məsələsinin həllinə müraciət nəinki koqnitivizm və linqvistika, həm də öz tədqiqat predmetinə şüurun müxtəlif aspektlərini daxil edən əlaqəli elmlərdən qaynaqlanır.

Bununla da koqnitiv dilçilik müstəqil fənlərarası elm sahələrindən biri kimi koqnitivistikanın istiqaməti olub digər elmlərin nəzəri-metodoloji aparatını linqvistik təhlilə inteqrasiya edir; onun nümayəndələrinin müraciət etdiyi elmlər ilk növbədə koqnitiv psixologiyanın üsullarına, yanaşmalarına və mental strukturlara diqqət yetirir.

Bu sahənin vahid istiqamətinin çərçivəsi necə formalaşır?

Təbii ki, bu məsələdə vacib məqam diskursun bir hissəsi olan mətnin koqnitiv təhlilidir. Mətn niyyətli olaraq müəyyən edilmiş vahid kimi müəllifin məramını, konkret kommunikativ situasiyada yaranan şəraiti təsvir edir.

Kommunikativ situasiyada mətnin adresata yönəlməsi məlumatı göndərəni və resipiyenti, həmçinin kontekstin nəzərə alınmasını tələb edir. Eyni zamanda belə şərtlər ünsiyyət alətinin necə qurulduğunu, onun real qarşılıqlı əlaqədə, yəni ünsiyyət aktında necə işlənildiyini müəyyən edir.

Bundan əlavə, mətnin koqnitiv təhlili zamanı mətnin semantik ölçüsünə, mətndə müəllifin məqsədinə və ötürdüyü məlumata məqsədyönlü şəkildə daxil etdiyi mənalara, mətnin yaranma prosesində müxtəlif dil variantlarının seçiminə, innovasiya məsələlərinə diqqət yetirilir.

Koqnitiv dilçilikdə danışanın dilini, həmçinin mətn istehsalını sosial və mədəni kontekstdə geniş şəkildə təsvir etmək vacibdir. Beləliklə, burada diqqət mərkəzi dilin mənimsənilməsindən insan nitqinin gerçəkləşməsinə, həmçinin

**DOI: https://doi.org/10.36719/2789-6919/2023/1**

linqvistik reallığın öyrənilməsinə keçir ki, bunlar da öz növbəsində xarici sistemli şərtlərlə müəyyən edilir.

**I Respublika Elmi Konfransı / 15 oktyabr 2023 / 8-13**
**I Republican Scientific Conference / 15 october 2023 / 8-13**
**DOI: https://doi.org/10.36719/2789-6919/2023/1**

**Nuranə Nuriyeva**
Azərbaycan Dillər Universiteti
Filologiya üzrə fəlsəfə doktoru
nurananuri@mail.ru

# EDQAR ALLAN PO VƏ HÜSEYN CAVİD YARADICILIĞINDA BÖYÜK ƏMİR TEYMUR OBRAZI (ORİYENTALİZMİN PROBLEMLƏRİ MÜSTƏVİSİNDƏ)

***Açar sözlər:*** *Oriyentalizm, Edqar Allan Po, "Teymurləng", H.Cavid, "Topal Teymur"*
***Keywords:*** *Orientalism, Edgar Allan Poe, "Tamerlane", H.Javid, "Topal Teymur"*

XIX əsr ABŞ ədəbiyyatının əsas ideya-bədii istiqamətini müəyyənləşdirən öz poeziyası və novellaları ilə yanaşı, ədəbi tənqidi əsərləri ilə də ədəbiyyatşünaslıq sahəsində böyük xidmətləri olan Edqar Allan Po yaradıcılığının ilk illərindən Şərqə olan marağını yazılarında əks etdirmişdir. Yazıçı və ədəbiyyatşünas Qriqori Çxartişvili "Şərq yoxdursa, Qərb də yoxdur (Dünya ədəbiyyatında yeni androqin haqqında)" adlı məqaləsində yazır: "Oriyentalizmin bir ədəbi cərəyan və bədii vasitə kimi səciyyəvi cəhəti onun Şərqə uzaqdan olan sevgisi, daha çox isə uydurma və idealizə olunmuş Şərqə olan sevgisidir. Bu, Qərbin öz fizionomiyasının qüsurlarını və xoşagəlməzliklərini ayırd etməyə çalışdığı bir metafora, bir güzgü kimi görünür. Şərq dəfələrlə Qərbin yanlışlığını sübut edən bir arqument kimi Qərb ədəbiyyatına xidmət etmişdir. Eyni zamanda müəllif Şərqə səmimi rəğbət bəsləsə, onu yaxşı bilsə belə, emosional məsafə və özgəlik qorunub saxlanmışdır" (1).

**DOI: https://doi.org/10.36719/2789-6919/2023/1**

Edqar Allan Ponun oriyentalizmini əks etdirən ilk nəşr olunmuş əsəri "Teymurləng və digər şeirlər" (*Tamerlane and other poems*, 1927) toplusudur. "Teymurləng" şeiri onun türk fatehi Böyük Əmir Teymurun həyatını bir yazıçı təxəyyülü ilə nəzmə çəkdiyi hekayəsini ehtiva edən əsərdir. Belə ki, dünya ədəbiyyatı tarixində Böyük Əmir Teymurla bağlı ilk əsəri ingilis şairi və dramaturqu Kristofer Marlo yazmış, ondan sonra 1701-ci ildə isə ingilis dramaturqu Nikolas Rou "Teymurləng" (*Tamerlane, 1701*) tarixi pyesini qələmə almışdır. K.Marlo bütün Şərq dünyasının fatehi olan Böyük Əmir Teymurun şəxsiyyətinə pərəstiş edirdi. Edqar Allan Po da tarixi Əmir Teymura böyük rəğbət bəsləmiş, lakin əsərində onu daha çox bir fateh olaraq deyil, hissləri, duyğuları və qəlbi olan biri kimi təsvir etmişdir. Azərbaycan ədəbiyyatında isə Böyük Əmir Teymurun obrazını yaradan Hüseyn Cavid olmuşdur. Onun "Topal Teymur" əsəri beş pərdədən ibarət olan, nəsrlə yazılmış tarixi dramdır. Hüseyn Cavid Edqar Allan Podan fərqli olaraq əsərində tarixi Teymurun həyatını qələmə almış, tarixi faktlara bədii forma vermişdir. O, dram əsərindəki əsas obrazları bir neçə səhnədə təcəssüm etdirməklə onların ziddiyyətli xarakterlərini yaradıcı təxəyyülü ilə açmağa çalışmış, bununla yanaşı, tarixi həqiqətlərə də sadiq qalmışdır (Quinn, 1998: 124).

Hüseyn Cavid Əmir Teymuru tarixi şəxsiyyət olaraq təqdir etmiş, əsərdə tökülən qan, müharibə və sosial münasibətlərin timsalında baş verən ən xırda hadisələrə belə Teymur obrazı ilə münasibət bildirmişdir. Bununla müqayisədə Edqar Allan Ponun Teymurləngi tarixilikdən uzaqdır. Edqar Allan Po Teymurləngin ölüm döşəyində etdiyi etirafını xəyali surətdə təkrarlamaqla faktlara əsaslanmağa çalışmır. Bir türk hökmdarı və müsəlman olan Teymurləngin Roma Katolik kilsəsilə də uzaqdan-yaxından heç bir əlaqəsi olmamışdır. Lakin buna baxmayaraq, Edqar Allan Po bu məşhur fatehin romantik

DOI: https://doi.org/10.36719/2789-6919/2023/1

ideyasından istifadə edərək onu daha çox Qərb dini mühitinə yönləndirməklə onun gənclik günahlarını Roma Katolik keşişinə etiraf edə bilməsinə şərait yaratmışdır. Hüseyn Cavid əsərdə Teymurun arvadı Dilşadın olduğu səhnədə onun bir kəndlinin şikayətini Teymura çatdırdığını təsvir edir. Burada Əmir Teymur Mamay xana hiddətlənir və onun ünvanına deyinir: "Ah, qudurğan, şaşqın!.. O düşünmür ki, əhalini incidən bir hakim yavrusunu parçalayan bir heyvan qədər şüursuzdur. Zərər yox, yarın məsələ aydınlaşır. Bu söz döğru çıxarsa, sayğısız hərifə ən şiddətli cəza verilir" (Cavid, 2005: 257).

Hüseyn Cavidin Topal Teymuru həqiqəti sevən biridir. O, ayıq-sayıq, ağıllı, mahir siyəsətçi və insan sərrafı olduğu üçün kiminlə necə davranacağını da yaxşı bilir. Məlumdur ki, tarixi Teymurləngin Avropaya yürüşü olmamışdır. Onun bir sərkərdə kimi ən yüksək keyfiyyəti hücuma keçəcəyi torpaqların əvvəlcədən coğrafiyasını öyrənməsi və xəritəsini hazırlaması idi. Bu səbəbdən də Avropanın torpaqlarının səmərəsiz və gücünün də zəif olduğuna qənaət gətirən Əmir Teymur son yürüşünü Çinə etmiş, lakin yolda xəstələnərək dünyasını dəyişmişdir. Edqar Allan Po da ola bilsin ki, bu tarixi gerçəkliyin işığında onu öz əsərində xəyali olaraq xristianlar arasında, bir keşişin hüzurunda etiraf edərkən təsvir etmək istəmiş və ən əsası günümüzdə daha çox İslam və xristian dinini ortaq olaraq göstərməyə çalışan Qərb dünyasının xrist-islam birliyi adı altında müxtəlif sənət sahələrində, xüsusilə musiqi və ədəbiyyatda yer alan bir görüşün bünövrəsini qoymuşdur. Hüseyn Cavid isə "Topal Teymur" dramında xalq nümayəndələrini qüvvətli bir güc olaraq önə sürür. O, Şeyx Buxari və İldırım obrazları ilə müharbə, əsarət və zülmə etiraz edirsə, bu obrazlar Edqar Allan Ponun "Teymurləng"ində yoxdur. Edqar Allan Ponun Teymuru iqtidara çatmaq üçün sərf etdiyi ömrünü acı peşmanlıq hissi ilə dilə gətirən biridir. O,

DOI: https://doi.org/10.36719/2789-6919/2023/1

Teymurləngi bir növü sadə xristian kəndli qızına düşkünlüyü ilə təqdim etməklə ən güclü insanın belə yenə bilməkdə "aciz olduğu sevgi qarşısında boyun əydiyini göstərir" (Poe, 2001: 20).

Şeirdə Teymurləngin bir cahan hökmdarı olmaq uğruna əldə etdiyi zəfərləri ilə yanaşı, bu yolda itirdiyi sevgisi və sadə həyatı haqqında daha çox məlumat verilir. Edqar Allan Po onu əsərində "Teymur insan olduğuna heyifsilənən bir Tanrı kraldır" deyə təqdim edir (Poe, 2001). Şeirin son hissəsində Teymurun uşaqlığını keçirdiyi evinə qayıtmağa cəhdi, lakin gördükləri qarşısında pərişanlığı və uğursuzluqla nəticələnən bir səhnə var. O, keşişə deyir: "Evimə çatdım - artıq evim yox idi - Çünki onu ev edən hər şey uçub getmişdi" (Poe, 2001: 21). Şeir həcmcə böyük olsa da Edqar Allan Po onu bir fateh olaraq deyil, qəlbi, ruhu və peşmanlıqları olan biri kimi vəsf edir. Sevgisini təkəbbür və şöhrətpərəstliyə qurban verən Teymurləng ölüm döşəyində keşişə etiraf edir ki, o, sevgisini dünya şöhrəti və qüdrət sahibi olmaq uğrunda fəda etdiyi üçün peşmandır. Bununla belə o, şan-şöhrət və zənginlik hərisliyinin insanlar arasında "şir kimi zəncirləndiyindən" şikayətlənsə də hər şeyi yenidən başlamaq mümkün olsa "yenə də eyni şeyi edərdim" - deyə vurğulayır (Cavid, 2005: 19).

Hüseyn Cavidin əsərində daha çox diqqət çəkən məqam isə Fazil Şeyx Buxarinin Sultan İldırım Bəyazidin nöqsanlarını birbaşa üzünə söyləməsi və iki növbətçi əsgərin söhbətidir. Əgər Fazil Şeyx Buxari sultana "Mümkünsə rəqqasələrə uyma! ... sərxoş vəzirlərə alət olma..." deyirsə, iki növbətçi əsgər "Sarayda keyf sürən azğın padşahlar, dəli xaqanlar... sərvət və səadət içində gülümsəyən qurnaz vəzirlər, yaramaz vəkillər... eyşü nuş ilə vaxt keçirən hoppa şahzadələr..." haqqında gördüklərini dilə gətirirlər (Cavid, 2005: 256).

Hüseyn Cavid dramında Edqar Allan Podan fərqli olaraq tarixə sadiq qalmış, Teymuru tarixdə olduğu kimi mənfi və

DOI: https://doi.org/10.36719/2789-6919/2023/1

müsbət tərəfləri ilə təsvir etmişdir. Edqar Allan Po isə mənasız bir dünyanın güclü, amma məsud olmayan hökmdar obrazını yaratmaqla keçici olan bəşəri həyatın tənəzzülünü ölüm adlanan son yolçuluqda etiraf monoloqu ilə bitirir. Sevgi və ölümün arasında yaşananlar insanı mənəvi kamilliyə götürsə də Edqar Allan Poya görə bəşəri olan hər şey yüksəlişə deyil, tənəzzülə, dağılmağa, məhv olmağa məhkumdur.

Hüseyn Cavid "Topal Teymur" dramında müharibə, zülm və istibdadın əleyhinə çıxsa da, əslində, orta əsrlərdə patriarxal-feodal münasibətlərinin kəskinləşdiyi bir dövr olaraq hərbi münaqişələrin olması da bu feodal özbaşınalığı dönəmində qaçılmaz idi. Belə ki, tarixdən də məlumdur ki, parçalanmış türk xalqları səlib yürüşlərinə də məruz qalmış və müasir dövrdə hələ də Qərbin həm gizli, həm də aşkar təcavüzü ilə mübarizə aparmaqdadır. Edqar Allan Ponun "Teymurləng" şeiri sevgidən daha çox müstəqillik, məğrurluq, mövzusunu ehtiva etsə də itkilərin əzabı və peşmanlıq hissinin də yer aldığı fəlsəfi bir əsərdir. Tarixi gerçəklikdən uzaq olan əsər əslində böyük türk sərkərdəsi Əmir Teymurun adını və həyat hekayətini poetik dillə nəzmə çəkən şairin ölüm və sevgi anlayışı üzərindəki düşüncələrinin şərhidir.

## Ədəbiyyat

1. Chkhartishvili, G. (1996). No net Vostoka i Zapada net (O novom androgine v mirovoy literature) / Inostrannaya literatura, №9. https://magazines.gorky.media/inostran/1996/9/no-net-vostoka-i-zapada-net-o-novom-androgine-v-mirovoj-literature.html
2. Quinn, A.H. (1998). *Edgar Allan Poe: A Critical Biography*. Baltimore: The Johns Hopkins University Press, p.124.

**DOI: https://doi.org/10.36719/2789-6919/2023/1**

3. Cavid, H. (2005). “Topal Teymur”, Əsərləri. 5 cilddə, 3-cü cild, Bakı, 304 s.
4. Poe, E.A. (2001). “*Tamerlane*” (Text-02), Tamerlane and Other Poems, p.5-21. https://www.eapoe.org/works/poems/tamerlna.htm

**I Respublika Elmi Konfransı / 15 oktyabr 2023 / 14-16**
**I Republican Scientific Conference / 15 october 2023 / 14-16**
**DOI: https://doi.org/10.36719/2789-6919/2023/1**

**Ayshen Gasimova - Mustafayeva**
Ganja State University
Ph.D student
ayshenmuellimeqasimova@gmail.com

# SYNTACTIC REPETITIONS IN ANCIENT TURKISH POETIC TRADITION

***Keywords****: syntax, repitition, parallelism, ritmical, poetism*
***Açar sözlər****: sintaksis, təkrar, parallelizm, ritmik, poetizm*

Research works in the field of syntactic repetitions have been carried out in Azerbaijani linguistics. Syntax is a branch of linguistics, its boundaries are very wide. Therefore, any research work conducted on syntactic repetitions does not mean that this field is fully covered. The research of the prominent Azerbaijani linguist Musa Adilov on syntactic repetitions is interesting in that it mainly examines and analyzes compound and non-compound phrases and sentences. This is of course part of the broader field of linguistics. The issues of large-scale study of syntactic repetitions will certainly continue and new achievements will be made in this field. One of the main functions of syntactic repetitions is that they create poeticism. The point is that in each syntactic repetition, not all members of the sentence, but certain components or the sentences themselves can be used repeatedly at any point. In this case, syntactic repetitions themselves create the impression of syntactic parallelism.In this sense, Kamil Valiyev, the author of serious studies on syntactic parallelism, writes that*"Repetitions occurring at the syntactic level and primarily parallelism, the main type of rhythmic-syntactic repetition, are of great importance"* (Valiyev, 1987: 302). Indeed, in many cases it is difficult to distinguish between syntactic repetition

**DOI: https://doi.org/10.36719/2789-6919/2023/1**

and syntactic parallelism, because elements of syntactic repetition can be found in syntactic parallelism. Considering that parallel elements are a product of the later period of linguistics compared to repeated elements and were formed on their basis, in this case, the existence of syntactic parallelism and syntactic parallelism can be justified. However, both syntactic constructions have their own characteristic features. In some sources, when talking about the poeticism of syntactic constructions, the terms syntactic repetition and syntactic parallelism are used interchangeably. For example, an article about mirsa says:*"Until the emergence of written poetry, the rhythmicity of ceremonial songs was created through syntactic repetitions and parallelisms"* (2). When talking about sentence repetition, in other words, syntactic repetitions, researcher Aytan Beylarova cites as an example the repetition of a sentence within the text, a component of a consecutive sentence, as well as the complete repetition of subordinate or independent sentences (Beylarova, 2008: 97-118). Syntactic parallelism is interpreted as follows:*"Syntactic parallelism means that the sentences immediately following each other have the same syntactic and intonation structure, that is, the repetition of the syntactic model as a whole, not the words"* (2). As can be seen from here, it is not excluded that there is a subtle connection between syntactic repetitions and syntactic parallels. The revitalization of rhythmicity and harmony with the use of syntactic repetitions in the literary text is generally appreciated in studies dedicated to this field. Syntactic repetitions are interpreted in the context of repetition of word combinations, as well as simple or complex sentences (Asgarova, 2020: 21-22).

In the prose language of Ramiz Rovshan, sentences and circular repetitions within the text occupy a special place. These repetitions are structured in such a way that each of them

**DOI: https://doi.org/10.36719/2789-6919/2023/1**

has a variety, that is, they are not structurally identical to each other. Therefore, the prose language attracts the attention of the reader in terms of coherence. For example, news items repeated in consecutive sentences are structured in such a way that one does not simply repeat the other, but highlights the details of the event and situation. On the other hand, each repeated message seems to recall the last line of a stanza of a poem:

*"When the teacher asked for a lesson, I was afraid to raise my hand first. I was afraid even when I learned the lesson by heart. I was not afraid of the teacher, but of the children. If God didn't do it, they could do it suddenly, I'm showing myself"* (Rovshan, 2006: 695).

Here the word *"I was afraid"* is repeated every time, every time it is repeated it creates a different impression. Also, those repetitions turn the prose language into rhythm and harmony.

## Reference

1. Vəliyev, K. (1987). Linqvistik poetika, poetik sintaksis, dastan poetikası haqqında bir neçə söz. Türk dili araştırmaları yıllığı. Belleten. 1987. 01.01.1992 cilt 35, s.297-304.
2. Misra. (2021). www. wiki.az/az.nina.az/Misra.html,.
3. Bəylərova, A. (2008). Bədii dildə üslubi fiqurlar. Bakı: Nurlan, 212 s.
4. Əsgərova, Q. (2020). Bədii dilin zənginləşməsində təkrarların rolu. Çağdaş Azərbaycan dilinin müasir problemləri. Naxçıvan Dövlət Universiteti, Respublika Elmi Konfransının Materialları. 30 oktyabr, 2020-ci il, s. 21-22. Naxçıvan, 2021.
5. Rövşən, R. (2006). Nəfəs. Kitablar kitabı. (Şeir, nəsr, esse). Bakı, Qanunnəşr, 760 s.

**I Respublika Elmi Konfransı / 15 oktyabr 2023 / 17-20**
**I Republican Scientific Conference / 15 october 2023 / 17-20**
**DOI: https://doi.org/10.36719/2789-6919/2023/1**

**Zumrud Hasanova**
Azerbaijani University of Languages
Bachelor's degree student
zumrud.gasanova03@gmail.com

# THE USE OF ARTIFICIAL INTELLIGENCE IN TRANSLATION

***Keywords**: Artificial Intelligence, machine translation, mistranslations, language barrier, algorithms*
***Açar sözlər:** Süni İntellekt, maşın tərcüməsi, səhv tərcümələr, dil baryeri, alqoritm*

Nowadays, our world is getting increasingly digitalized due to the extensive use of Artificial Intelligence in variety of fields. From smart homes to self-driving cars, AI has become an integral part of our daily lives. With the advance of AI, there have been drastic changes in many spheres such as marketing, banking, healthcare, to name a few. In recent years, there has been an increasing use of Al in translation sector as well. The practice of using AI in translation texts from source language to the target one is mainly aimed at breaking down the language barrier within a matter of seconds between people all across the globe.

Before diving deep into the topic of AI in translation, it is necessary to find out the exact meaning behind the Artificial Intelligence. The term of AI refers to the technology that creates algorithms allowing it to reproduce behaviours similar to those generated by the human brain, such as translating, reasoning, proofreading,planning,etc. Machine translation came into existence in 2006 with the advent of Google Translate, which marked the beginning of AI based translation. Initially, this technology had considerable limitations. Most of

DOI: https://doi.org/10.36719/2789-6919/2023/1

the times, the translation was literal and often contained gross language errors. Nevertheless, in 2017 Google Translate switched to a neural machine translation engine, which is based on artificial neurons and considers the entire text and its context. This, in turn, resulted in the enhancement of machine translation and removal of all the possible gaps. Furthermore, NMT is able to continuously improve and refine itself thanks to the flow of data it receives. So, NMT is a major technological advance, which makes it possible to get quality translations if needed.

Machine translation is not only limited to Google Translate. There are also some other examples of Al-powered translation softwares, such as Microsoft Translator, Systran, and Meta's Al translation software. In 2022, Meta, the parent company of Facebook, created a brand-new Al model, which is called “No Language Left Behind” project. It performs translation tasks in more than 200 languages worldwide. What is more, this software includes minority languages like Asturian, Luganda, and Urdu that are not currently covered by existing machine translation systems.

Today, big companies are more likely to give preference to AI translation given its numerous advantages such as its speed and availability. First of all, Al based translation is capable of translating long paragraphs or pages within less than a second. Artificial Intelligence has the ability to take a sentence and immediately translate it to multiple different languages just based on its software. Human translators, meanwhile, often need a couple of days or weeks, depending on the complexity of whatever is translated. Another major advantage that Artificial Intelligence has over an average human is that it doesn't get tired. Not only are these programs extremely fast but the AI can go on for as long as you want. It can be turned

DOI: https://doi.org/10.36719/2789-6919/2023/1

on all day and night whereas a normal translator will always need time to have a rest.

However, AI is not complete without a human touch. Despite the accuracy of the translation it can provide, AI sometimes leaves the room for misunderstandings, which, in turn, have damaging consequences on people's lives and often result in disputes. The main reason for that is its inability to think. Regardless of how powerful a certain program is, there's no way for a robot to have cognitive thinking. AI is a program that is incapable of interpreting more than what it's been designed for. To be more specific , AI has often hard time processing sarcasm, metaphors, cultural elements, puns, hints, etc. It means that very important things literally get lost in translation. It does not happen all the time, but the fact that such kind of mistranslations do happen sometimes needs to be taken into consideration for the further improvement of AI based translation.

There are some good examples of machine translation when it failed to give the proper meaning of the sentence. According to Guardian, Israeli police arrested a Palestinian man in 2017 after Facebook mistranslated a post reading "good morning" in Arabic as "attack them" in Hebrew.Facebook later apologized for the error, but, of course, the damage had already been done (1).

The similar situation has recently happened in subtitle translation within Netflix. In a Korean Squid Game series, which was released in 2021, there were some inaccuracies in conveying the Korean culture. For example, one of the characters of Squid Game trying to convince the other players to play with her says: "I'm not a genius, but I still got it worked out". But it was supposed to be translated as "I am very smart, just never got the chance to study", something that happens often in Korea (2).

**DOI: https://doi.org/10.36719/2789-6919/2023/1**

In conclusion, AI is expected to undoubtedly facilitate the work of the translator. There is a possibility of the emergence of a hybrid method, which is neural translation with post-editing where Al can be combined with a human approach. Far from being a threat, AI could end up being a real opportunity for translators.

## Reference

1. https://www.theguardian.com/technology/2017/oct/24/facebook-palestine-israel-translates-good-morning-attack-them-arrest
2. https://www.bbc.com/news/world-asia-58787264

**I Respublika Elmi Konfransı / 15 oktyabr 2023 / 21-25**
**I Republican Scientific Conference / 15 october 2023 / 21-25**
**DOI: https://doi.org/10.36719/2789-6919/2023/1**

**Fərəh Məmmədova**
Bakı Dövlət Universiteti
seva82seva@mail.ru

# HİNDİSTAN VƏ ŞİMALİ AMERİKANIN MÜSTƏMLƏKƏ OLDUĞU DÖVRDƏ İNGİLİS DİLİNƏ DAXİL OLAN ALINMALAR

***Açar sözlər**: lüğət, dövr, struktur, dil, müstəmləkə, üsul, zənginləşmə, inkişaf*
***Keywords:** dictionary, period, structure, language, colonization, method, enrichment, development*

İngilis dili lüğətindəki alınma sözlər, xarici: qeyri-linqvistik amillərin dilə təsirini göstərən, İngiltərə tarixini ən sıx və birbaşa əks etdirən leksika növüdür. Buna görə də onları ingilis xalqının tarixi ilə əlaqələndirərək xronoloji ardıcıllıqla izləmək məqsədəuyğundur. İngilis dilinin tarixi adətən aşağıdakı dövrlərə bölünür: qədim ingilis dili (450-1066), orta ingilis dili (1066- 1500) və yeni ingilis dili (1500-dən bu günədək). Lakin Orta əsrlər dövründə elmi dil latın dili olduğundan və İntibah dövrü (XV-XVI əsrlər) antik mədəniyyət abidələrinə maraqla xarakterizə olunduğundan lüğətin genişlənməsi və yeni elmi terminologiyanın yaradılması, əsasən, latın və yunan dillərindən alınma sözlər hesabına baş verirdi. Beləliklə, fəlsəfə, hüquq, tibb terminologiyası və s. yaradılmışdır. Bu dövr həm də alınma sözlərin aktiv istifadəsi ilə xarakterizə olunur. XVII əsrin sonlarını ədəbi ingilis dili normasının formalaşması, elmi prinsiplərə əsaslanan və dilin istifadəsini sabitləşdirmək məqsədini daşıyan ilk lüğətlər və qrammatikanın yarandığı zaman hesab etmək olar. XVII əsrdən etibarən İngiltərənin müstəmləkə ekspansiyası və bununla bağlı müstəmləkə və yarımmüstəmləkə ölkələrinin dillərindən söz

DOI: https://doi.org/10.36719/2789-6919/2023/1

axını başlayır. 1600-cü ildə Hindistanla ticarətin inhisarlaşdırılması məqsədilə Ost-hind və ya Şərqi Hindistan şirkəti təşkil edilmişdir və bunun sayəsində ingilis hakim sinifləri əvvəlcə Hindistanın iqtisadi və daha sonra siyasi əsarətini tədricən həyata keçirirdi (Pavlenko, 1986).

XVII əsrin əvvəllərində ingilis mühacirləri Şimali Amerikada məskunlaşmağa başladılar. Şimali Amerika İngiltərənin müstəmləkəsinə çevrildi və 1776-cı ilədək müstəmləkə olaraq qaldı. Amerikanın fəthi zamanı yerli amerikalılar, demək olar ki, bütün bu torpaqları itirdilər. Bu gün onlar ABŞ əhalisinin 2-dən az faizini təşkil edirlər. Bununla belə, ingilis dili yerlərin, heyvanların, bitkilərin və qidaların adları daxil olmaqla çox sayda yerli sözləri özündə saxlamışdır. İngilis dilinin götürdüyü sözlərin əksəriyyəti alqonkin dilləri qrupuna mənsubdur. *Algonquian* sözü də bu dillərdə danışan qəbilələr qrupuna aiddir (2).

1. **Anorak**: inupiat dilində olan *annoraaq* sözündən əmələ gəlir. Bu söz, faktiki olaraq, ingilis dilində yalnız 1920-ci illərdən sonra ortaya çıxmışdır. Hərfi tərcümədə *annoraak* "qadınların geyindiyi muncuqlu paltar" deməkdir. Hal-hazırda anoraklar daha çox hava soyuduqda geyinilən bir palto hesab olunur. 2.**Caribou**: mikmak qəbiləsi *qalipu* sözünü "qarı dırmıqlayan" dırnaqları olan heyvanı təsvir etmək üçün istifadə edirdi, bu da ingilis dilində *caribou* sözünə çevrildi. 3. **Caucus**: *caucus* sözünün mənşəyi ilə bağlı bir çox fərziyyələr mövcuddur. Lakin əksər dilçilər *caucus* sözünün alqonkin dilində olan "*cau-cau-as-u*" sözündən əmələ gəldiyinə inanırlar. Bu söz tövsiyə etmək və məsləhət vermək anlamına gəlirdi. Müasir amerikan ingilis dilində *parlour caucus* – "gizli iclas" mənasında işlənir. 4. **Chipmunk**: ojibve qəbiləsi qırmızı dələni *jidmoonh* adlandırdı. Bu, ingilis dilində *chipmunk* sözünə uyğunlaşdırılmışdır. Lakin bu söz ilk dəfə 1820-ci illərdə dərc edildikdə, "chitmunk" kimi yazılmışdır. Bu sözün

**DOI: https://doi.org/10.36719/2789-6919/2023/1**

*chipmunk*-a necə çevrildiyi hələ də sirr olaraq qalır. 5. **Eskimo**: Kvebekdə yaşayan inuit qəbiləsi "qar ayaqqabısı torlarını" təsvir etmək üçün *aiachkimeou* sözündən istifadə edirdi. "Eskimo" sözü tez-tez irqçilik niyyəti ilə istifadə olunduğu üçün hal-hazırda təhqiredici termin hesab edilir və bu söz heç vaxt qəbiləyə aid deyildir; bu söz onlara yeridilmişdir. İnuit mədəni xüsusiyyətlərə əsaslanan bir termindir. 6. **Hickory**: *hickory* sözünü eşidəndə dadlı tüstü dadan barbekü sousu düşünülür, lakin bu, həmişə belə dadlı bir yeməyə aid deyildi. *Hickory* sözü, alqonkin sözü olan *pocohiquara* sözündən əmələ gəlmişdir, *hickory* "qoz fındıqlarından hazırlanan isti, mayalanmış südlü içki" deməkdir. 7. **Husky**: inuitlər qarda kirşəni hərəkətə gətirmək üçün xaski itlərindən istifadə edirdi. Husky *huskemaw* sözünün əsl mənası eskimos köpəyidir və hal-hazırda da geniş istifadə olunur. 8. **Igloo**: *igloo* termini hal-hazırda yerli Alyaska tayfaları tərəfindən tikilmiş və buz kərpicləri ilə qarı birləşdirərək dizayn edilmiş qübbəli yaşayış evinə aiddir. Lakin orijinal söz *igdlu* daha geniş bir söz qrupuna mənsub idi. Bunlara mənası şəhər olan igluik və insanlar olan iglulirmiut sözləri daxildir. 9. **Moccasin**: *mockasin* sözü bir çox yerli dillərə mənsubdur. Buna səbəb tayfaların aşılanmış dəridən hazırlanan oxşar *mokasin* üslubunda olan ayaqqabılardan istifadə etmələri ola bilərdi. 10. **Moose**: yerli abenaki dilindən götürülmüş *moz* sözünün mənası "ağacdan qabığı qoparan" heyvanı təsvir edir. Bu söz indiki zamanda sığına bənzər məməlilər haqqında danışarkən istifadə etdiyimiz *moose* sözünə çevrilmişdir. 11. **Opossum**: Virginia alqonkin dilində oxşar səslənən bir etimon mövcuddur: *opassum*. Bu söz, *op*, yəni "ağ" və *assum*, yəni "it" sözlərinə bölünə bilər. XVII əsrin əvvəllərində bu söz ingilis mətnində *opossum* şəklində yazılmışdır. 12. **Papoose**: *Papoose* sözü Massaçusetsin alqonkin dilində olan "körpə və ya uşaq" mənasını daşıyan *papoos* sözündən əmələ gəlir. Hazırkı vaxtda

**DOI: https://doi.org/10.36719/2789-6919/2023/1**

*papoose* sözü körpə daşıyıcısı mənasında istifadə edilir, lakin yerli insanlar bu sözü hələ də yerli Amerika körpəsi mənasında istifadə edirlər. 13. **Pecan**: İngilis dilində tortlarda ləzzətli bir qoz təsvir etmək üçün istifadə olunan *pecan* sözü əvvəlcə daha ümumi kontekstdə istifadə edilirdi. *Pecan* alqonkin dilində *pakani* sözündən əmələ gəlir, sözün əsl mənasında "qırılması üçün daş lazım olan bütün qoz-fındıqlar" deməkdir. 14. **Raccoon**: povhatan qəbiləsi *aroughcun* sözünü "əlləri ilə cızan" bir varlığı təsvir etmək üçün istifadə edirdi. İngilis dilindən alınan bu söz əsrlər boyu yavaş-yavaş dəyişərək *raccoon* halına gəldi, mənası yenotdur. 15.**Squash**: narragansettin - yerli Amerika qəbiləsinin-sözü *askutasquash* "çiy və bişirilməmiş" deməkdir. Bu söz köçkünlər tərəfindən qısaldılmış və bu gün bildiyimiz balqabaq tərəvəzlərinə istinad etmək üçün geniş istifadə edilir. Feil kimi *to squash a lemon* - limonu sıxmaq kimi lüğətdə qarşımıza çıxır. 16.**Terrapin**: sadə dillə desək, *terrapin* sözü alqonkin dilində "kiçik tısbağa" mənasını daşıyan *torope* sözündən əmələ gəlmişdir. 17.**Toboggan**: mikmaq dilində olan *topoqan* sözündən əmələ gələn və kirşə mənasını daşıyan bu söz ilk dəfə Amerika səyahətinə çıxmağa cürət etmiş kolonistlər tərəfindən istifadə edilmiş və alətlərin və ya ağır əşyaların daşınması üçün kirşə mənasında uyğunlaşdırılmışdır. Hal-hazırda bu termin əyləncəli bir gəzinti, xoş vaxt keçirmə və ya qarda nəqliyyat növü kimi daha geniş mənada istifadə olunur. 18. **Tomahawk**: *Tomahawk* sözünün alqonkin dilində olan *otomahuk* sözündən əmələ gəldiyi müəyyən edilmişdir. Sözün əsl mənasında bu söz "nəyisə yerə yıxmaq" mənasını daşıyırdı. Müasir lüğətdə *to bury the tomahawk* - hərbi əməliyyatı dayandırmaq, *to dig up the tomahawk* - hərbi əməliyyatı başlamaq mənalarını özündə daşıyır. 19.**Woodchuck**: kree qəbiləsinin *otcheck* sözü və digər oxşar səslənən alqonkin sözü *wuchak* mövcuddur (Arakin, 2003: 176). Dilçilər hansının ingilis sözünün həqiqi mənşəyi

DOI: https://doi.org/10.36719/2789-6919/2023/1

olduğu barədə mübahisə edirlər. Lakin ingilis sözü ikisinin birləşməsi ola bilər, çünki hər ikisi də gəlincik ailəsindən olan heyvanlara aiddir. Beləliklə, kapitalizmin çiçəkləndiyi dövrdə və imperializmin inkişafının ilk mərhələlərində ingilis kapitalının gücü dünyanın, demək olar ki, hər yerinə nüfuz etdi. İngilis dilinin lüğəti dünyanın müxtəlif dillərindən həqiqətən çox sayda söz topladı. Lüğət tərkibi yeni ingilis dövrünün ən sürətli inkişaf edən tərəfidir. Dilin lüğət tərkibinin zənginləşdirilməsi üsulları daxili (törəmə sözlərin əmələ gəlməsi, çevrilmə) və xarici (alınma sözlər) olur. Sonuncunun mənbələri bütün dünya ilə nəinki birbaşa, həm də dolayı (kitablar vasitəsi ilə və XX əsrdə - kino, radio, televiziya vasitəsi ilə) əlaqələrin qurulması sayəsində daha çox olur.

## Ədəbiyyat

1. Pavlenko, L.B. (1986). İngilsi dilinin leksikologiyası. Moskva.
2. https://www.twinkl.com/blog/20-english-words-borrowed-from-native-american-languages
3. Arakin, V.D. (2003). İngilis dilinin tarixi. Moskva, 272 s.

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES

**Aysel Şükürova**
Mətnin koqnitiv təhlili .....5
**Nuranə Nuriyeva**
Edqar Allan Po və Hüseyn Cavid yaradıcılığında
Böyük Əmir Teymur obrazı (Oriyentalizmin
problemləri müstəvisində) .....8
**Ayshen Gasimova - Mustafayeva**
Syntactic repetitions in ancient Turkish poetic
tradition .....14
**Zumrud Hasanova**
The use of artificial intelligence in translation .....17
**Fərəh Məmmədova**
Hindistan və Şimali Amerikanın müstəmləkə olduğu
dövrdə ingilis dilinə daxil olan alınmalar .....21

İmzalandı: 12.10.2023
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 1.75 ç.v.
Sifariş: 676

---

www.aem.az saytında çap olunub
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az